BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№2 *Sosial-siyasi elmlər seriyası* 2005

# ORTA ƏSRLƏRDƏ AZƏRBAYCANDA HÜQUQ MƏNBƏLƏRİNİN ƏSAS CƏHƏTLƏRİ

**Z.Z.CABBAROV**

*Məqalədə orta əsrlərdə Azərbaycanda mövcud olmuş müxtəlif səpgili hüquq mənbələrinin təhlili verilmiş və onların səciyyəvi cəhətləri araşdırılmışdır. Bütün Şərq aləmində bu ərəfədə fəaliyyətdə olan qanunların demək olar ki, hamısı islam qanunvericiliyindən qaynaqlansa da və bütövlükdə regionun inkişaf xüsusiyyətlərini, milli-mənəvi, iqtisadi-sosial cəhətlərini əks etdirsə də, həmin dövrlərdə mövcud olmuş Azərbaycan dövlətlərinin qanun yaradıcılığı prosesi özünəməxsus cəhətlərə malik olmuşdur.*

Orta əsrlər Azərbaycanı öz yerləşdiyi məkan baxımından bu dövrdə ictimai-siyasi həyatın bütün sahələrində baş verməkdə olan hadisələrin mərkəzində dururdu. Şərqin aparıcı dövlətlərindən olan Eldəgizlərin, Elxanilərin, Qaraqoyunlu və Ağqoyunluların, Səfəvilərin fəaliyyət göstərdiyi bu ərazidə iqtisadi, sosial, aqrar, ticarət, ailə-məişət və digər mülki məsələlər, inzibati, hərbi münasibətlər, habelə beynəlxalq məsələlər öz hüquqi tənzimini nəinki islam qanunvericiliyində, hətta onun inkişafı baxımından verilmiş çoxsaylı normativ-hüquqi sənədlərdə də tapmışdı.

Həm XVI əsrə qədər, həm də XVI-XVIII əsrlərdə Azərbaycanda mövcud olmuş hüquq mənbələri içərisində əsas yer islam hüququna mənsub idi. İslam dini Azərbaycan ərazisində hakim mövqedə olduğundan onunla üzvi surətdə bağlı olan müsəlman hüququ, eləcə də bütün qanunvericilik sistemini əhatə edən şəriət özünün ali hüquqi qüvvəsini bu dövrlərdə saxlamışdı. Müsəlman hüququ isə Qurandan, Sünnədən, İcmadan, Qiyasdan, Fetvadan, İctihaddan, Təfsirdən, Qanundan və Adətdən qaynaqlanırdı. Din ilə hüquq arasındakı sıx bağlılıq, birincinin ictimai və şəxsi həyata, hətta məişətə güclü təsiri bütün müsəlman ölkələrinin, o cümlədən orta əsrlər Azərbaycanının tarixi inkişafının xüsusiyyətini təşkil edirdilər.

Məlumdur ki, islam dini fiqhin dövlət hakimiyyəti tərəfindən dəyişdirilməsi hüququnu tanımır(1). Müsəlman hüququnun əbədi olaraq dəyişilməz hesab olunan dini əlamətlərin üzərində qurulmasını iddia edən qanunvericilər – fəqihlər hüquqa hər hansı bir dəyişikliyin olunmasının qarşısını almağa çalışırdılar. Lakin iqtisadiyyat, istehsal münasibətləri və mədəniyyət dəyişilmədən qala bilməzdi. Bütün bu dəyişikliklərin islam dini ilə, müsəlman huququ ilə nə dərəcədə bağlılığını aşkara çıxarmaq lazım idi.

Azərbaycan dövlətlərinin hərbi-siyasi, sosial-iqtisadi və mədə-

ni həyatında baş verən mühüm dəyişikliklər onların hüquqi həyatında da əks olunmaqda idi və bütün bunlar yeni hüquq münasibətlərinin meydana çıxmasına səbəb olmuş və hüquqi sferada da öz inikasını tapması ilə nəticələnmişdi. Digər tərəfdən müsəlman hüququnun əsas mənbələrində, xüsusilə Quranda gələcəklə, tarixi inkişafla bağlı cizli mənaları əks etdirən sətirlər də az deyildi və bütün bunların təfsirini vermək, həmin ayələrdə göstərilmiş, hüquqi baxımdan böyük əhəmiyyət kəsb edən mənaları açıqlamaq həyati zərurətə çevrilmişdi. Üçüncü bir tərəfdən Azərbaycan xalqının sosial-iqtisadi, mədəni və hüquqi həyatında kök salmış adətlər, xüsusilə torpaq münasibətləri və şəhər həyatı ilə, əmlak qanunları və məişətlə bağlı məsələlər tədricən müsəlman hüququnun tərkibinə daxil olur və onun inkişafına əhəmiyyətli təsir göstərirdi. Məhz bu baxımdan həmin adətlərin də elmi təhlilini vermək zərurət kəsb edən məsələlərdən idi.

Azərbaycan fəqihləri tərəfindən hədislərin toplanması və sistemə alınması ilə yanaşı, bir sıra fiqh əsərləri də yazılmışdı. Azərbaycan fəqihlərinin içərisində əqli mühakimə metodunun tərəfdarları az deyildi və onların hüquqa dair yazdıqları əsərlər çox hallarda şəxsi təhlillərə əsaslanırdı. Azərbaycan hüquqşünaslarından Əbdülxəlil Təbrizinin «Sirac əl-qülub» («Qəlblərin nuru»), Əbuhəfs Zəncaninin «əl-Mütəmad» («Müvəkkil»), Fəxrəddin Marağalının «əl-Məhsul fi üsuli"l-fiqh» («Müsəlman hüququnun əsasları»), Əbdüləziz Üşnuhinin «Fi"l-fəraid» («Dini borclar haqqında»), Məhəmməd ibn Abdulla Bərdəinin «Müxalifətçilərə cavab», «Müsəlman hüququnun əsaslarına dair məcəllə», «İmamətə dair kitab», Şihabəddin Əhmədin «əl-Fəraiz» («Vərəsəlik hüququ»), Şəmsəddin Xoylunun «Kitab fil-üsul» («Əsas başlanğıclar haqqında kitab»), Əbdülmünaqib Zəncaninin «Təhric əl-füru əla əl-üsul» («Əsasdan ikinci dərəcəlinin alınması»), Fəxr əl-Qudat Marağalının «Mənakib əl-imam Əş-Şafii» («İmam Əş-Şafiinin məziyyətləri»), Fəlakəddin Təbrizinin «əş-Təvdihad əl-Rəşidiyyə» («Rəşidilərin izahları»), Tacəddin Urmavinin «Kitab əl-hasil min əl-məhsul» («Nəticələrin əldə edilməsi»), Səfiəddin Urmavinin «Nihayət əl-vüsul fil elm əl-üsul» («Əsas prinsiplər haqqında elmə keçidin hüdudları»), «əl-Faik» («Mükəmməllik»), «əz-Zübda» («Seçilmişlər»), «ər-Risalət ən-nəfsiyyə» («Qəlbin xitabı»), Aminəddin Vəravinin «Simt əl-fəraid» («Seçilmişlərin incisi»), «ət-Tənkix» («İslah etmə»), «Səbt əl-məsail» («Sübutlar»), Şihabəddin Əbuhəfs Ömər Sührəvərdinin «Əvarif əl-maarif» («Maariflənmənin nemətləri»), «Kənz əl-ibad fi şərf əl-əvrad» («Duaların izahında allah bəndələrinin sərvəti»), «Kəşf ən-nəsaix əl-imaniyyə və kəşf əl-fədaix əl-yunaniyyə» («İlahi nəsihətlərin təlqin edilməsi və yunan uydurmalarının aşkarlanması»), «İlam əl-xuda na əkidat ərbab ət-tuqa» («İlahi qismət və iblisə qulluq edənlərin inandırılması»), «Risalə fil-fəkr» («Miskinlik haqqında traktat»), «Nimat əl-fiqh» («Hüquqşünaslığın ənamları») (2) və s.-nin hüququn müxtəlif sahələri üzrə yaratdıqları çoxsaylı fundamental əsərlərdə müxtəlif səpkili hüquq normaları əks etdirilir, müsəlman hüququna dair məsələlərə aydınlıq gətirilir, bununla da fiqhin tərkibi və təfsiri daha da zənginləşdiri-

lirdi.

Hələ erkən orta əsrlərdə meydana çıxmış Azərbaycan xalqının həm qəhrəmanlıq eposu, həm də dövrünün xarakterik hüquqi abidələrindən biri hesab edilən «Kitabi-Dədə Qorqud» həm ideoloji sahədə, həm də ictimai münasibətlər – adətlər, qədim etiqadlar, qəbilə-tayfa münasibətləri, sosial quruluşun əsas istiqamətləri sahəsində oğuzların tarixinin ilk dövrlərini xarakterizə edirdi və eyni zamanda sonradan yaranan hüquq normalarına böyük təsir göstərmişdi. Humanizmi, sosial ədaləti, sülhü, xalqın birliyinin təmin edilməsini əsas amillər kimi nəzərə çarpdıran bu eposda dövlətin ərazi bütövlüyünün və onun sərhədlərinin qorunub saxlanılması, dövlətin vahidliyinin möhkəmləndirilməsi, ölkədə ədalətli və dayanıqlı idarəetmə strukturunun yaradılması, əhalinin təhlükəsiz həyat şəraitinin təmin edilməsi, humanizm siyasətinin həyata keçirilməsi, ədalətli qanunlar verilməsi daima diqqətə çəkilir (3).

Hüququn mənbələri içərisində fərmanlar əhəmiyyətli yer tuturdu. Fərmanlarda ictimai-siyasi həyatın müxtəlif sahələri ilə, o cümlədən torpaq münasibətləri, əhalinin hüquqi vəziyyəti, vergi sistemi, mülkiyyət və vərəsəlik hüququ, inzibati hüquqla bağlı normalar əks etdirilmişdi. Fərmanların böyük bir qrupu həyata keçirilən islahatların əsasında dururdu. Bunlara misal olaraq Elxanilər dövründə Qazan xanın fərmanlarını, Qaraqoyunlu və Ağqoyunlu dövlətlərində Cahan şahın, Uzun Həsənin, Əhməd şahın fərmanlarını, Səfəvilər dövründə I İsmayılın, Təhmasibin, Abbasın fərmanlarını, xanlıqlar dövründə Quba, Şəki və Qarabağ xanlarının müxtəlif səpgili fərmanlarını qeyd etmək olar. Qazan xanın fərmanları istər ictimai-siyasi, sosial-iqtisadi, dini, istərsə də hüquqi baxımdan mükəmməlliyi ilə seçilirdi. Müxtəlif sahələr üzrə islahatları nəzərdə tutan 40-a yaxın fərmanların tənzim etdiyi münasibətlər sistem baxımından aşağıdakı bölgüyə ayrıla bilər: İslam dininin qəbulu və möhkəmləndirilməsi barədə qanunvericilik; hərbi iş və qoşun saxlanılmasına dair qanunvericilik; təsərrüfat iqtisadiyyatının idarə edilməsi barədə qanunvericilik; torpaq və rəiyyətin hüquqları barədə qanunvericilik; ticarət-maliyyə qaydaları barədə qanunvericilik; saraydaxili idarəçilik barədə qanunvericilik; daxili qayda-qanunlara əməl edilməsi sahəsində qanunvericilik; ədalət mühakiməsi və mülkiyyət tələbləri haqda qanunvericilik.

İlkin olaraq islam dininin qəbulu haqqında 16 iyul 1295-ci ildə fərman verilmiş, islam dövlət dini elan olunmuş, monqollar kütləvi şəkildə islama keçmişdilər. 1300-cü ildə «Məhkəmə haqqında», «Qazı rütbəsinin verilməsi haqqında», «Dələduzluğun və əsassız iddiaların qarşısının alınması, habelə girovsuz borc alanlar, digər borclular tərəfindən əhdi pozma hallarının aradan qaldırılması haqqında» fərmanlarla məhkəmə-istintaq islahatı, həmçinin «İslam hökmdarının qazılara, şeyxlərə, zahidlərə, alimlərə və mömin şəxslərə təlimatları haqqında» fərmanla müxtəlif məsələləri əhatə edən islahat həyata keçirildi. Məhkəmə islahatı ilə əvvəllər mövcud olmuş qayda – məhkəmə hakimi vəzifələrinin otkupa (iltizama) verilməsi qaydası ləğv olunurdu(4).

Torpaq mülkiyyətinin formaları və təmini ilə bağlı islahatlar

əkinçilik məsələlərini, torpaqların bütün ölkə ərazisində yenidən bölüşdürülməsi prosesini əks etdirirdi. Bununla yanaşı, «Qoşuna iqta paylanması haqqında», «Xam torpaqların becərilməsi və məskunlaşdırılması haqqında» fərmanlar verilmiş və burada işğalçıların, eləcə də yerli məmurların orta təbəqələrinin yaşayışının zəruri vasitələrlə təmin edilməsi məqsədi güdülürdü.

Dövlət məmurlarının özbaşınalığının və vəzifələrindən suiistifadə hallarının məhdudlaşdırılması hallarını, habelə maliyyə və vergi münasibətlərini tənzimləyən fərmanlar xüsusi əhəmiyyət kəsb edirdi. Bunların içərisində «Yarlığ və payzların verilməsi işində ciddi qaydanın gözlənilməsi haqqında», «Ulağın (yam vergisi) ləğv edilməsi, çaparların sayının ixtisara salınması və onlar tərəfindən əhalinin sıxışdırılmasının qadağan edilməsi», «Dövlətin bütün ərazilərində çaparlar üçün dayanacaq məntəqələrinin tikilməsi buyuruğunun verilməsi və hakimlərə, digər məmurlara şəxsi evlərdə qalmasının qadağan edilməsi haqqında», «Ölçü, çəki və uzunluq vahidlərinin bütün ölkə ərazisində eyni standartlara gətirilməsi haqqında», saray idarəçiliyi, vergi, ordu, rabitə islahatlarının əsasında duran digər fərmanlar dövlət idarəçiliyinin möhkəmləndirilməsi, ictimai-siyasi və hüquqi həyatın yaxşılaşdırılması baxımından əlverişli şərait yaratmışdı (5).

Həmin dövrdə «İşçi Qanun» adı altında fərmanların və digər normativ aktların daxil olduğu sənədlər toplusu tərtib edilmiş və mövcud qanunların tətbiqində ziddiyyətli məqamların aradan qaldırılmasına cəhd göstərilmişdi. Bu toplu dövlət idarəçiliyində və mübahisəli məsələlərin həllində mühüm əhəmiyyət kəsb edirdi. Həmin dövrün fərmanlarında və hüquqi sənədlərində mülki hüquq münasibətlərini tənzim edən normalar özünün çoxcəhətliliyi ilə seçilirdi. Bu dövrdə torpaq üzərində mülkiyyət formaları dəyişikliyə məruz qalmış, şərti torpaq sahibliyinin iki növü – hərbçilərə verilən iqta torpaq sahibliyi ilə sonradan mülkə çevrilməsi nəzərdə tutulan soyurqal torpaq mülkiyyəti meydana çıxmış, incu və divan torpaq sahibliyinin hüquqi əsasları müəyyənləşdirilmişdi. Mülkiyyətin əldə edilməsinin müxtəlif yolları mövcud idi. Bunların içərisində mülki-hüquqi bağlaşmaları, qanun üzrə vərəsəliyi, dövlət tərəfindən təsərrüfatın canlandırılması məqsədilə ilə yardım şəklində verilən müxtəlif əmlak növlərini, əmlakın vəqfə verilməsini, tapıntını və s.-ni qeyd etmək olar.

Əmlaka faktiki sahiblik edən şəxslərin onun qanuni mülkiyyətçisinə çevrilməsi üçün 30 illik iddia müddəti müəyyən edilmişdi. Bu müddət ərzində sahibkar nəinki ona məxsus olan və iradəsindən asılı olmayaraq onun sahibliyindən çıxan əmlak növlərini, habelə feodallar özlərinin qaçmış kəndlilərini geri qaytarmaq hüququna malik idilər(6).

Mülki-hüquqi müqavilələrdən meydana çıxan öhdəliklərin icrası sahəsində mühüm tədbirlər görülmüşdü. Alqı-satqı müqaviləsinin bağlanması müəyyən şərtlərə əməl olunmasını tələb edirdi. Belə ki, tərəflərin hüquq və fəaliyyət qabiliyyətinin olması, satılan əşyanın keyfiyyəti haqqında məlumatların verilməsi ilə yanaşı, dələduzluğun aradan qaldırılması üçün satıcının həmin əmlakın

sahibi olmasını sübut etməsi qaydası da müəyyən olunmuşdu. Qaydaya görə satıcı satdığı malın qəbaləsini şahidlərin iştirakı ilə məhkəməyə təqdim edir, əqd bağlandıqdan sonra həmin qəbalə "məhkəmə qabında" yuyulurdu ki, gələcəkdə həmin qəbalədən istifadə edib satdığı əmlakı tələb etməsin. Bundan sonra əqd bağlanır, qazi tərəfindən təsdiq edilirdi. Qanunsuz qəbalədən istifadə edənlərin saqqalı qırxılır, qatıra mindirilərək şəhərdə dolandırılmaqla cəzalandırılırdı. Müqavilənin təsdiqinə cavabdeh şəxslərə saxta qəbalələri «məhkəmə qabında yumaq» (ləğv etmək), sahibinin onu vermədiyi halda belə qəbalələrin zorla alınması üçün tədbir görülməsi bir vəzifə olaraq tapşırılırdı.

Ailə münasibətlərində tərəflərin – ər-arvadın əmlak hüquqları və əmlak məsuliyyəti, qəyyumluq və himayədarlıq, uşaqlara və yaşlı valideynlərə nəfəqənin (alimentin) təyin edilməsi, atılmış və ya itirilmiş uşaqların götürülərək saxlanılmasının hər bir mükəlləfin borcu olması, yetimlərin əmlakının onların böyüməsinə və tərbiyəsinə məsrəf edilməsi, atalığın müəyyən olunması üçün falçı xidmətlərindən istifadə, əmlakın bölüşdürülməsi zamanı müxtəlif kateqoriyalı vərəsələrə münasibət, ayrı-ayrı mülki bağlaşmaların hüquqi nəticələri və s. kimi məsələlərlə bağlı hüquq normaları yeni təfsirlərlə müşayiət olunurdu. Yuxarı təbəqəyə mənsubların miras əmlakının ötürülməsi ilə bağlı yeni qaydalara görə kişi cinsindən uşağı olmayan arvadların xassə və mülk torpaqları (əgər kişi daha əvvəl vəfat etmişdisə) o biri arvadlara keçirdi. Qadın cinsli övladlara irsən incu torpağı və mülkün verilməsi nəzərdə tutulmurdu.

Bu dövrün cinayət hüququnda bir çox cinayət tərkibləri ilə yanaşı, vergi cinayətlərinə də rast gəlinir. Vergilərin vaxtında ödənilməməsinə görə qalığı olan vergi ödəyicilərinə münasibətdə əsas vergi məbləğinin bir faizi həcmində cərimə tətbiq olunurdu. Müəyyən olunmuş müddətdə vergini ödəməyənlər 70-dək çubuq cəzasına da məruz qalırdılar (7). Belə cəzaya, həmçinin, əhalidən baratlarda müəyyən olunmuş məbləğdən artıq yığımları həyata keçirənlər də məhkum olunurdular. Vergilərin ödənilməməsinə görə əmlakın müsadirəsi və borcunu ödəyə bilməyənlərin köləyə çevrilməsi kimi cəzalar da tətbiq edilirdi.

Cahanşah Qaraqoyunlunun fərmanı ilə xaçpərəstlərin islama keçməsi prosesini fəallaşdırmaq məqsədilə qeyri-müsəlmanlardan yığılan cizyənin və xəracın məbləği artırılmışdı. Onun başqa bir fərmanı ilə orduda islahat aparılmış, kəşfiyyat işlərini həyata keçirən xüsusi qarovul dəstəsi, həmçinin xüsusi hərbi bölümlər yaradılmış, qoşunun yeni qayda üzrə düzülüş forması müəyyənləşdirilmişdi. Əhməd Ağqoyunlunun 1497-ci ildə verdiyi fərmanında kəndlilərdən dövlətin müəyyən etdiyi vergilərdən başqa heç bir verginin tutulmaması, bir çox yığımların və mükəlləfiyyətlərin, o cümlədən ixracat, şiltaqat, səlamani, adambaşı yığılan vergilər, biyar və s.-lərinin ləğvi, dövlət məmurlarına əhali ilə ədalətlə rəftar edilməsinin xüsusi bir vəzifə olaraq tapşırılması əks etdirilmişdi. Onun digər fərmanı ilə yarımköçəri hərbi əyanlara daimi olaraq verilmiş soyurqal (bəxşiş olaraq verilən torpaq sahibliyi forması) sənədləri hüquqi qüvvədən düşmüş hesab edilir və soyurqalların irsi xüsusiyyəti ləğv edilmişdi.

Ümumiyyətlə, soyurqalların verilməsi və onların hüquqi vəziyyəti ilə, vergilərin tənzimlənməsi ilə bağlı fərmanlar digər fərmanlarla müqayisədə bu dövrdə üstünlük təşkil edirdilər.

I Təhmasib tərəfindən 1556-cı ildə ölkədə həmin il üçün malcəhət və vücuhat vergilərinin, o cümlədən 1565-ci ildə sənətkarlardan alınan tamğa vergisinin ləğv edilməsi iqtisadi sahədə islahatların keçirilməsindən xəbər verirdi. 1629-cu ildə I Abbasın fərmanı ilə ayrı-ayrı xidmət sahələri üçün nəzərdə tutulmuş vergilər, tədarük mükəlləfiyyətləri, bayramlarda və əlamətdar günlərdə ödənilən bir sıra yığımlar ləğv olunmuşdu. Həmin fərmanla hamam işçiləri ələfə, ülufə, qonalğa, alam, bigar, şikar, tərh, dəstandaz, peşkəş, salam, eydi, novruzi, tüfəngçi pulu, bəhayi-morq və s. vergi və mükəlləfiyyətlərdən azad edilmişdilər (8).

Hərbi islahatın əsasında duran fərmanların məzmunu maraq doğurur. Belə fərmanlardan biri I Abbasın tərəfindən nizami ordu dəstələrinin yaradılmasını, qızılbaşların silah gəzdirməkdə inhisar hüququnun ləğvini, orduya digər tayfa nümayəndələrinin də daxil ola bilməsini, könüllü qoşunların komplektləşdirilməsinin tayfa pərakəndəliyi prinsipi üzrə həyata keçirilməsini nəzərdə tutan yeni qaydanın tətbiqini, qızılbaşlar tərəfindən hərbi rəhbər postunun irsi tutulmasının ləğvini və bu postu şahın etimad göstərdiyi istənilən şəxsin tuta bilməsi qaydasını müəyyən edirdi. Bu islahat nəticəsində qızılbaşların vahid etnik varlığı aradan qaldırılmış, müxtəlif qoşun kateqoriyaları yaradılmışdı.

I Abbasın dövründə verilən fərmanlardan biri də pul islahatını nəzərdə tuturdu. Dövriyyəyə yeni pul vahidi – 200 dinar dəyərində olan «abbasi»nin daxil edilməsini müəyyən edən bu fərmanda digər pul vahidləri – dəyəri 100 dinara bərabər mahmudi, 50 dinar dəyərində olan şahi, 20 dinarlıq qiymətə malik bisti və dəyəri 5 dinara bərabər qazbeqi barədə məlumat verilir. Birinci dörd pul vahidinin gümüşdən dairəvari olaraq kəsilməsi (yalnız bisti oval formasında kəsilməli idi), qazbeqinin isə misdən hazırlanması nəzərdə tutulurdu. Müxtəlif əlamətdar hadisələrlə bağlı qızıldan beş abbasılıq pulların kəsilməsi qərara alınmışdı ki, onların da dəyəri vəziyyətdən asılı olaraq nominal qiymətindən ya aşağı düşür, ya da qalxırdı. Gümüş pulun üz tərəfində (avers) ortada allahın, peyğəmbərin və dairənin ətrafında on iki imamın adları yazılırdı. Arxa tərəfdə isə hakimiyyətdə olan şahın Adı, pulun kəsildiyi yer və tarix həkk edilirdi.

Hökmdar fərmanlarının, təliqələrin əksəriyyəti müsəlman hüququnun normaları əsasında qəbul edilir və bu normalar fiqhin ümumi prinsipləri çərçivəsində müəyyən dəyişiklikləri nəzərdə tuturdu. Digər tərəfdən, həmin fərman və təliqələr dövlət hakimiyyətini təmsil edənlər tərəfindən verildiyi üçün dünyəvi qanunvericilik sistemini təşkil edirdi.

Süzerenlik və vassallıq münasibətlərini əks etdirən hüquqi sənədlər orta əsrlər Azərbaycanı üçün səciyyəvi bir cəhət kimi xüsusi maraq doğurur. Biri digərindən asılı olan dövlət başçıları arasında «Şərtnamə» adlanan hüquqi sənəd tərtib olunaraq hər iki tərəfin möhürü ilə təsdiqlənir və burada vassallığın hüquqi nəticələri

də nəzərə çatdırılırdı. Belə ki, 1488-ci ildə Şirvanşah Fərrux Yasar və Yaqub Ağqoyunlu arasında imzalanmış «Şərtnamə»də birinci tərəfin asılılığı aydın nəzərə çarpır: «...Söz verirəm ki, dostun olum, səninlə yaxşı davranım, vəd etdiyim beş min Təbriz tüməni məbləğində pulu hər il gecikdirmədən göndərim» (9).

Məlumdur ki, islam qanunvericiliyi dini və dünyəvi qanunlar arasında qırılmaz bir əlaqə müəyyən etmişdi. Bu baxımdan hüquq mənbələrinin xüsusi bir qrupunu bu dövrlərin idarəçilik və hüquq təcrübəsi baxımından yazılmış və çox hallarda dövlət aparatında istiqamətverici vəsait qismində istifadə olunan əsərlər mühüm yer tuturdu. Bunların içərisində idarəetmə və hüquq qaydalarından bəhs edən Nizamülmülkün «Siyasətnamə»si, Nəsirəddin Tusinin «Əxlaqi-Nasiri», «Maliyyə haqqında traktat» əsərləri, Fəzlullah Rəşidəddinin «Dəstur əl-məmləkət», «Mükatibati-Rəşidi», «Vəqf-name-yi-rəb'i Rəşidi» toplularını, Məhəmməd ibn Fəxrəddin Hinduşah Naxçıvaninin «Dəstur əl-katib fi təyin əl-məratib» («Dərəcələrin müəyyən edilməsi zamanı mirzələr üçün rəhbər vəsait») toplusunu, Cəlaləddin Məhəmməd Dəvaninin «Ərznamə» («Hərbi baxış kitabı») əsərini, Şeyx Səfinin yazışmalarından ibarət olan «Məqamat və məqalət», «Siyər-i halati sofiyan», Movlana Əhməd Şirazinin «Miftahül-qülub» (yaranışdan I Şah Abbasın vəfatına qədər olan ictimai-siyasi və hüquqi hadisələri özündə əks etdirən əsərdir), Xondəmirin «Həbib-üs-siyər», Həsən bəy Rumlunun «Əhsənüt təvarix», Fəzli ibn Zeynalabdin ibn Ruhulla Xuzaninin «Əfzəl ət-təvarix» («Tarixlərin ən ləyaqətlisi») adlı əsərlərini, İskəndər Münşinin «Tarixi aləm arayi-Abbasi» əsərini və s. Göstərmək olar. Həmin əsərlərdə ölkənin iqtisadi-sosial həyatına dair qayda—qanundan bəhs edilmiş, xüsusilə dövlət quruluşu, pul tədavülü, vergi sistemi, şah və rəiyyət əmlakının hesaba aldırılması, çaparxanaların qaydaya salınması, tikinti işlərinin genişləndirilməsi, şəhər və kəndlərin abadlaşdırılması, xəzinəyə daxil olunacaq vergilərin vaxtında toplanılması, təbəqələrin hüquqi vəziyyəti, aqrar münasibətlər, əmlak məsələləri, ümumiyyətlə, mülki, əmək və ailə, cinayət və prosessual hüquqa aid çoxsaylı normalar əks etdirilmişdi.

Orta əsrlər Azərbaycanının hüququnu səciyyələndirən əlamətlərdən biri də Azərbaycanın ərazisində yaranmış və digər dinə mənsub olan azərbaycanlıların ailə-nikah, vərəsəlik, əmlak münasibətləri sahəsindəki hüquqlarını, dini və məişət məsələlərini, məhkəmə və mühakimə icraatı qaydalarını özündə əks etdirən mənbələrin mövcudluğudur. Belə hüquq mənbələrindən biri xaçpərəst albanlar üçün alban katolikosu III Stepannosun təkidli xahişi ilə Gəncə şəhərinin kilsə xadimi Mxitar Qoş tərəfindən XII əsrin axırlarında, daha dəqiq deyilsə, 1184-cü ildə tərtib etdiyi «Qanunnamə»dir. «Qanunnamə»yə heç bir sistem gözlənilmədən Bizans imperiyasının qanunları ilə yanaşı, alban kilsə qanunları, «Musanın qanunları», Aquen və Bərdə kilsə kanonları daxil edilmişdi. Elə bu əsasla da sonralar ona Mxitar Qoş tərəfindən yazılmayan fəsillər əlavə edilmiş və digər xristian ölkələri də bu hüquqi sənəddən istifadə etmişdilər.

Bu «Qanunnamənin» alban hüquq mənbəyi olduğunu sübuta yetirən çoxsaylı faktlar vardır və bunların da əksəriyyəti elə Mxitar Qoşun özü tərəfindən həmin qanunun giriş hissəsində yazmış olduğu müddəalarda öz əksini tapmışdır. Giriş hissəsi ilə yanaşı, «Qanunnamə» kilsə qanunları və dünyəvi qanunlar adlanan hissələrdən ibarət idi. İkinci hissəyə daxil olan müddəaları araşdırarkən mülki hüquq, xüsusilə mülkiyyət və vərəsəlik hüququ, ailə hüququ, cinayət hüququ ilə bağlı çoxsaylı normalara təsadüf edilir. Mülkiyyət hüququnun iki formasını – kilsə mülkiyyətini və xüsusi mülkiyyəti önə çəkən kilsə qanunları onların üzərində sahiblik, istifadə və sərəncam hüquqlarını ətraflı şərh edir. Vərəsəlik normalarının əks etdirildiyi müddəalarda əmlakın qanun əsasında və vəsiyyət üzrə miras olaraq bölüşdürülməsi qeyd olunur. Bununla əlaqədar bir sıra səciyyəvi cəhətlər diqqəti cəlb edir. Kişinin övladı olmayan qadından miras payı almasına yol verilmir, əksinə belə qadının kişidən təsərrüfatı idarə etmək məqsədilə cüzi miqdarda miras ala bilməsi nəzərdə tutulurdu. Uşaqları olduğu təqdirdə hər iki tərəf, yəni ər və arvad bir-birindən miras ala bilərdi. Ər və arvad uzun müddət bir yerdə yaşamışdılarsa, onların ölüm xərci də birgə əmlaklarından götürülməli idi.

«Qanunnamə»nin «Dünyəvi qanunlar» adlanan üçüncü hissəsi 130 maddədən ibarət olub, müxtəlif ictimai münasibətləri tənzimləyirdi. Bunları müəyyən qruplaşmalara – hakimlər və ədalət mühakiməsi ilə bağlı, kəndlilər və xidmətlər barədə, şəxsə xəsarət yetirmə və ölüm haqqında, təbii və milli sərvətlər haqqında, təhqirlə bağlı, oğurluq, quldurluq, dələduzluq cinayətləri haqqında, qullar barədə, ticarət və mülki münasibətlər haqqında, vərəsəliklə, adətlər və digər məsələlərlə bağlı müddəaların əks etdirildiyi bölümlərə ayırmaq olar. Bu hissədə bir çox digər məsələlərlə yanaşı, mühakimənin ədalətli şəkildə aparılması, qanun pozuntusuna yol verilməməsi, ədalətsiz qərarlara görə hakimlərin özlərinin də iki və ya üç şahidin iştirakı ilə mühakimə olunması və s. qisim prinsipial xarakterli normalar müəyyən edilmişdi.

Mxitar Qoş «Qanunnamə»ni tərtib edərkən islam qanunlarından da geniş istifadə etmişdir və bu məsələ həmin hüquqi sənədin məzmununda qeyd olunur. Xüsusilə də «Qanunnamə»nin vərəsəlik hüququ ilə bağlı bir çox məsələlər, ər və ya arvadın əsir düşməsi vaxtı nəzərdə tutulan qaydalar və s. müsəlman hüququnun normalarından istifadə olunması ilə yazılmışdır. Eyni zamanda, müsəlman hüququnda müsəlman qadının başqa dinə mənsub olanlar və ya dinsizlərlə nikaha daxil olması qadağan olunduğu kimi, Qanunnamədə də xaçpərəst albanların müsəlmanlarla nikaha girmələri yolverilməz hesab edilirdi və dindən dönməyə bərabər tutulurdu (10). Daşınmaz əmlakın özgəninkiləşdirilməsi ilə bağlı əqdlərin bağlandığı andan yeddi il sonra qüvvəyə minməsi nəzərdə tutulurdu və bu müddət ərzində ilk sahibinin müvafiq əmlakı geri qaytarmaq hüququ müəyyən edilirdi. Mülki hüquqa dair müddəaların bir qismi mülkiyyət hüququnun müdafiəsinə – mülki-hüquqi zərərin ödənilməsinə həsr edilmişdir. Məsələn, birinin heyvanının (öküzünün) başqasınınkını vurub öldürdüyü və ya qazılmış çökəyə mal-

qaranın düşüb tələf olmasına görə zərərin tam ödənilməsi nəzərdə tutulurdu. Ustaların vurduğu zərərə görə sifarişçi qarşısında məsuliyyət daşıyır, materialın xarab olmasının (yəni təsadüfi tələf olma riski), yanğın baş verməsinin də məsuliyyəti onların üzərinə düşürdü. Ümumiyyətlə isə yanğının baş verməsinin səbəbkarı olmuş şəxsin yanmış əmlakın məbləğini ikiqat həcmdə ödəməsi tələb olunurdu. Bunlarla yanaşı, başqasının əmlakına zərər vurulması və ödənilməsinin digər qaydaları da nəzərdə tutulurdu (11).

Məlumdur ki, Azərbaycan müəyyən vaxtlarda xarici müdaxilələr nəticəsində bir çox digər xalqlarla birlikdə bir imperiyanın tərkibində yaşamağa məcbur olmuşdur. Həmin xalqlara məxsus olan bir sıra hüquq mənbələri Azərbaycan ərazisində də tətbiq edildiyindən tədricən onlar Azərbaycanın hüquq sisteminin tərkib hissəsinə çevrilmişdilər. Bu mənbələrin içərisində Çingiz-xanın Böyük Yasasını, «Tüzukati-Teymuri»ni, «Təzkirət əl-mülük»ü və s-ni göstərə bilərik.

Elxanilər dövlətinin fəaliyyətinin ilk çağlarında köçəri monqollar və monqol aristokratiyası Çingiz-xanın Yasası əsasında hərəkət edir, bütün idarəetmə və təsərrüfat-məişət məsələləri, mülki və ailə-nikah münasibətləri bu qanunun göstərişlərinə uyğun olaraq tənzimlənirdi. Çinqiz xanın Yasası metal lövhələrdə cızılmışdı və o, hər dəfə yeni xan seçilərkən ucadan səsləndirilirdi. Yasanın tam mətni dövrümüzə qədər gəlib çatmamışdır. Yazılmamış və köçürülməmiş Yasa şifahi olaraq nəsildən-nəslə ötürülmüşdür. Bizə məlum olan 33 fraqmentdən əksəriyyəti cinayət hüquq normalarını özündə ehtiva edir. Onlardan yalnız ikisi mülki hüquqi məsələlərə həsr edilmişdir. Vərəsəlik və ailə-nikah münasibətlərinə aid olan həmin fraqmentlərin əsasında qeyd edə bilərik ki, əmlak bölgüsü zamanı ailənin böyük oğluna üstünlük verilərək ona daha çox əmlak payı verilirdi. Bununla belə, ata ocağı (kasıblarda yurta, varlılarda əsas aillər, xanlarda başlıca ulus) onun ölümündən sonra kiçik oğula qalırdı. Oğlan övladlarının yetkinlik yaşına yetişməsinə qədər ailə başçısı vəfat edərdisə, müvəqqəti olaraq əmlakı birinci (böyük) arvad idarə edirdi. Uşaqların böyüklüyü də onların analarının birinciliyi ilə ölçülürdü. Yasaya görə qadının böyüklüyü onun yaşı ilə deyil, nikahın bağlanma vaxtı ilə müəyyən edilirdi. Ümumiyyətlə, o dövrdə köçərilərin həyatında qadının rolu yüksək olduğundan (bütün ev təsərrüfatı, döyüşçülərin xidmətə göndərilməsi ilə bağlı hazırlıq, yır-yığış işləri onun üzərinə düşürdü; çox zaman onlar öz ərlərini hərbi yürüşlərdə də müşayiət edirdilər) Yasada qadınların hüquqi vəziyyətinə də müəyyən yer ayrılmışdır.

Nikahın bağlanması zamanı (bu əksər hallarda qadının oğurlanması ilə müşayiət olunurdu) kişi tərəfin müəyyən məbləğdə xərc (başlıq) verməsi, qadının isə öz nəslinin imkanlarına uyğun olaraq cehiz gətirməsi nəzərdə tutulurdu. Yasada kişinin qadının atası evinə köçüb yaşaması kimi adətə də rast gəlinir. Miras əmlakın bölgüsü ilə bağlı yuxarıda gətirdiyimiz fakt istisna olmaqla, birinci və ya sonrakı arvadlardan, yaxud kənizlərdən doğulmasına baxmayaraq, bütün oğlan övladları bərabər hüquqlara malik idilər. Bu da öz növbəsində çoxarvadlılığa yol verilməsi, köçərilərin və döyüşçülərin

sayının artırılması ilə əlaqələndirilirdi.

Uşaqların vəziyyəti patriarxal ailə üçün tipiк hal sayılan valideynlərə, xüsusilə ataya onların dinməzcə, şərtsiz tabe olmaları ilə xaraкterizə olunur. Ailənin acından ölməsinin qarşısını almaq məqsədilə uşaqların satıla bilməsi halları da Yasanın normalarında müəyyən yer tapmışdır. Qız övladlarının nisbətən az hüquqa maliк olmaları, niкaha daxil olarкən ata evindən cehiz apardıqları üçün vərəsəliк hüququna maliк olmamaları da Yasada öz əкsini tapmışdır.

Böyüк Yasa formalaşmaqda olan feodal dövlətinin möhкəmləndirilməsinə istiqamətləndirilmişdi. Bu məqsədlə qanunlar toplusunda həddindən artıq qəddar cəzalar nəzərdə tutulurdu. Yasa, onun göstərişlərini pozmağa görə olduqca qəddar cəzalar müəyyən etmişdi. Bunun təsdiqi кimi belə bir faкtı göstərməк olar кi, Yasa ilə qadağan edilən 36 əməldən 13-ü ölüm cəzası ilə cəzalandırılırdı. Yasaya görə yuxarı təbəqənin nümayəndələri təкcə vergilərdən deyil, həm də doqquz dəfəyə qədər cəza verilməкdən azad idilər.

Cinayət normaları cinayətləri və mülкi hüquqi pozuntuları fərqləndirməyərəк, bütün əməllərə görə ciddi cəzalar nəzərdə tuturdu. Yasada qan intiqamının mövcudluğuna işarə vardır, laкin bu həmin dövrdə getdiкcə sıradan çıxmaq üzrə idi.

Əldə edilən məlumatlara görə, xana və müxtəlif yüкsəк səviyyəli vəzifəli şəxslərə qarşı hər hansı formada xəyanət və tabe olmamaq qəddarcasına cəzalanmaya, yəni müxtəlif üsullarla ölüm cəzasına məhкum edilməyə səbəb olurdu (12).

Yasanın bizə qədər gəlib çatmış fraqmentlərində, başlıca olaraq, ölüm cəzası haqqında məlumatlar üstünlüк təşкil edir. Belə кi, adamöldürməyə, qaçmış qulun mənimsənilməsinə görə Yasa ölüm cəzasını nəzərdə tutur. Belə cəzalar əmlaк cinayətlərinə görə də müəyyən edilmişdi. Yasaya görə, başqasının atını oğurlamaqda təqsirli bilinən şəxs, oğurlanmış atla yanaşı on baş at da qaytarmalı idi. Təqsirкar şəxsin bu qədər atı verməк imкanı olmadıqda, o, bunun əvəzində öz uşaqlarını verməli, uşaqları olmadığı halda isə ölüm cəzasına məhкum edilirdi. Bu zaman ölüm cəzası məhкumun qoyun кimi кəsilməsi yolu ilə icra olunurdu. Ölüm cəzasının bu və Yasada nəzərdə tutulmuş digər bir sıra növləri monqolların кöçəri həyatı ilə bağlı idi. Belə üsulların içərisində кürəк sümüyünün sındırılması, кəndirlə boğma, atlara bağlamaqla təqsirкarın bədənini hissələrə parçalama və s. geniş yer tuturdu (13).

Yasaya görə, ölüm cəzası, həm də oğurluğa, üçdəfəliк müflisləşməyə, döyüşdə öz yoldaşına кöməк göstərməməyə, qaçmış qulların gizlədilməsinə, əsirlərə onları əsir götürən şəxsdən geyim və yeməк verməyə, zinaкarlığa, başqasına zərər yetirməк məqsədilə cadugərliyə, düşünülmüş şəкildə yalan danışmağa, təкbətəк döyüşdə tərəflərdən hər hansı birinə кöməк göstərməyə, başqasının davranışını güdməyə, кülü və suyu murdarlamağa, bütpərəst monqolun qoyunu, heyvanı müsəlman кimi кəsməsinə və s. qisimdə əməllər üstündə nəzərdə tutulurdu (14). Xırda oğurluğa görə (məs., qoyunun oğurlanmasına görə) təqsirкar şəxs üçün ölüm cəzası deyil, qamçılanma və ya da oğurlanmış əşyanın (əmlaкın) on qat məbləğini

ödəmə nəzərdə tutulurdu.

Ayrı-ayrı fraqmentlərdə ordunun təşkili, ona rəhbərlik haqqında, dövlət başçısının-böyük xanın bəylərlə-feodallarla qarşılıqlı münasibətləri barədə danışılır.

Hüquqi normalardan əlavə, Çingiz xanın müxtəlif məsələlərə dair, o cümlədən nəsihət xarakterli qərarları və göstərişləri Yasaya daxil edilmişdi ki, bunlardan da on üçü bizə məlumdur. Onların içərisində od üstündən, süfrə üstündən tullanmaq, axan suda yuyunmaq və ya paltar yumaq və s. kimi qadağanları nəzərdə tutan normalar var idi. Ümumiyyətlə, burada mənəvi-estetik, dini normalarla hüquq normaları üzvi surətdə çulğalaşmışdır.

XIV əsrin axırları-XV əsrin əvvəllərində Azərbaycanda da hökmranlıq etmiş Teymurləngin «Qanunnamə»sindən – «Tüzukati-Teymuri»dən dövlət idarəçiliyi, məmurların səlahiyyətlərinin müəyyən edilməsi və mühakimə icraatı məsələlərində istifadə olunması qismən də olsa davam etdirilirdi. «Tüzukati-Teymuri»də dövlət idarəçiliyi, ayrı-ayrı vəzifəli şəxslərə, ələlxüsus əmir əlüməraya, divan rəisinə (divanbəyiyə), qazılara qarşı irəli sürülən tələblər, ordu quruculuğu, cinayət və cəza məsələləri və s.-dən bəhs edilir. Məsələn, butun zəruri, mühüm dövlət məsələlərində, müharibə edilməsi və sülh bağlanılması ilə bağlı əmirlərlə məsləhətləşmənin vacib hesab edildiyi qanun müddəasında məsləhət zamanı mənfəət və faydanın zərər ilə tutuşdurulmasının hər hansı bir məsələnin həllində tədbirli addımların atılmasına gətirib çıxaracağı qeyd olunurdu.

Qanunnamənin karvan yollarının təhlükəsiliyi, quldurluq cinayətinin qarşısının alınması ilə əlaqədar əyalət hakimlərinin vəzifələrindən bəhs edilən hissəsində qeyd olunurdu ki, tacirlərin və digər sərnişinlərin mallarının mənzilbəmənzil təhlükəsiz aparılıb yerinə çatdırmaları üçün karvan yollarına hakimlər tərəfindən mühafizlər təyin edilməli, mühafizə məsələləri gücləndirilməlidir. Bu vəzifənin icrasına səhlənkarlıqla yanaşan hakimlərin məsuliyyət daşımaları bildirilirdi.

«Tüzukati-Teymuri»-də edilən qeyri-qanuni, təhlükəli əmələ görə adekvat cəzaların təyin edilməsi, bir əməlin törədilməsinə görə eyni zamanda bir neçə cəzanın verilməsinin yolverilməz olduğu qeyd olunurdu: «Əmr etdim ki, rəiyyətdən zor ilə deyil, ağac vurmaq və şallaq zərbəsilə yox, qorxutmaqla vergi alsınlar. Əgər hakimin hökmü ağac və şallaq vurmaqdan daha az olsa, o, hakim hökmranlıq etməyə layiq deyildir. Əmr etdim ki, günahkardan cərimə alsalar, şallaq vurmasınlar. Şallaq vursalar, cərimə almasınlar. Əmr etdim ki, övladlarımdan birisi şahlıq iddiasında olsa, onu öldürməyib, əl-ayağını bağlamayıb, bədən əzalarını naqis etməsinlər. Həbsdə saxlasınlar ki, öz iddiasından əl çəksin ki, Allah mülkündə fəsad törətməsin» (15).

Şəxsiyyətə qarşı və əxlaq cinayətlərini törədənlərin, xüsusilə də bədənə xəsarət yetirilməsi və zinakarlıqda təqsirli bilinənlərin mühakiməsinin mütləq məhkəmə orqanlarında aparılması Teymurun qanunnaməsində xüsusi qeyd olunurdu: «Əmr etdim ki, harada oğrunu tapsalar cəzalandırsınlar, kim digərinin malını zor ilə

əlindən almış olsa, alınan malı zalımdan alıb sahibinə qaytarsınlar. Qalan məsələlər, o cümlədən diş sındırmaq, göz kor etmək, qulaq, burun kəsmək, şərab içmək, zina etmək hadisələri baş verərsə qazi-ye islam və qazi-ye ehdas divanlarında iclas edib, şərə aid məsələlərə islam qazısı hökm çıxarsın. Ürfi məsələlər barədə ehdas qazısı məsələni dərindən yoxlayıb mənə məruzə etsin» (16). Qanunnamənin bu müddəasından belə bəlli olurdu ki, şəri məsələlər barədə hökm çıxarılması islam qazısına tapşırıldığı halda, bədən xəsarətləri, şərab içmək, zina kimi cinayətlər barədə (oğurluqdan başqa) hökm çıxarılması üçün ürfi məhkəmələrdə təhqiqat işləri aparılmaqla və nəticəsi barədə hökmdara məlumat verilməsi tələb edilməklə, həmin məsələlər barədə qəti hökm şəxsən hökmdarın özü tərəfindən verilirdi.

«Təzkirət əl-mülük» (17) (şahlar üçün yaddaş qeydi) 1726-cı ildə tərtib edilmişdi. Bu sənədin tərtibatının naməlum müəllif tərəfindən əfqan əmiri Mahmud Gilzayın əmri ilə həyata keçirildiyi haqqında məlumatlara da təsadüf olunur. «Təzkirət əl-mülük» dövlətin strukturu, dövlət quruluşu, inzibati aparat və dövlət idarəçiliyi, məhkəmə quruluşu və mühakimə icraatı məsələləri, hərbi quruluş, vergi sistemi haqqında geniş məlumatları, habelə o dövrün qanunvericiliyi haqqında, dövlət idarəçiliyinin müxtəlif məsələləri üzrə normativ-hüquqi aktlar barədə bir sıra məlumatları özündə əks etdirir. Bu hüquqi sənəd dövlətin siyasi quruluşunun, iqtisadi və milli zülmə məruz qalan əhali kütlələrinin xarici qəsbkarlar əleyhinə çıxışlarının mahiyyətini dərk etməyə imkan verir.

Sənəddə daha çox inzibati hüquqa yer ayrılır, şah, baş vəzir, dövlət divanlarının başçıları olan ali rütbəli məmurlar da daxil olmaqla bütün vəzifəli şəxslərin səlahiyyətləri, onların vəzifələrə təyin olunma və işdən azad edilmə qaydaları, maliyyə divanları, dövlət gəlirlərinin, xəzinəyə mədaxil edilənlərin idarə olunması, pul əməliyyatlarının həyata keçirilməsi və digər bu kimi məsələlərin hüquqi tənzimlənməsi öz əksini tapır. «Təzkirət əl-mülük» məhkəmə instansiyalarının fəaliyyəti haqqında, cinayət və mülki işlərin baxılması və həlli qaydaları haqqında, məhkəmə aidiyyəti ilə bağlı müfəssəl məlumatlar verir. Sənədin dərindən təhlili nəticəsində onun əksər müddəalarının mülkiyyətin bütün formalarının toxunulmazlığı haqqında islam prinsiplərindən bəhrələndiyi aydın olur. Din xadimləri haqqında, dini qaydalar barədəki müddəalarda dünyəvi hakimiyyəti təmsil edənlər tərəfindən bütün islami qanunların qeyd-şərtsiz icrasının müəyyən edilməsi dinin, eləcə də müsəlman hüququnun qaydalarının, hüquqi göstərişlərin nüfuzunun gözlənilməsinə istiqamətlənmişdi.

Orta əsrlər Azərbaycan hüququnun mənbələrinin böyük bir qismini Azərbaycanın öz tarixi ərazisində yaranan və Azərbaycan dövlətlərinin başçıları və ya kollegial orqanlar tərəfindən qəbul edilən qanunnamə və hüquqi toplulardır. Bunların içərisində Ağqoyunlu hökmdarı Uzun Həsənin Qanunnaməsini, Səfəvi hökmdarı I Şah Təhmasibin «Dəstur ül-əməl»ini, «Came-ye Abbas» hüquqi toplusunu, Şəki xanı «Məhəmməd Həsən xanın «Dəstur ül-əməl»ini,

Car-Tala Qanunnaməsini qeyd etməк olar.

Uzun Həsənin «Qanunnamə»si XV-XVI əsrlərdə Azərbaycanda xaraкteriк qanunvericiliк aкtı hesab olunurdu. 1470-1477-ci illər arasında tərtib edilən «Qanunnamə» Uzun Həsənin islahatlarının əsasında dururdu. Burada, əsasən yarımкöçəri hərbi əyanlara deyil, oturaq əhaliyə əsaslanmaq xətti götürülürdü. Kəndlilərdən alınacaq vergilər müəyyənləşdirilir, onların miqdarı dəqiqləşdirilirdi кi, bununla da vergi sistemi nisbətən nizama salınmış və vergiyığan məmurların özbaşınalığını aradan qaldıran tədbirlər müəyyənləşdirilmişdi. «Qanunnamə»nin yalnız Ağqoyunlu dövlətində deyil, ondan vassal asılılığında olan bütün ərazilərdə tətbiq olunmasını göstərən mənbələr həmin qanunların XVI əsrin birinci yarısında Səfəvilər dövlətində və bir sıra Osmanlı vilayətlərində də hüquqi qüvvəyə maliк olduğunu qeyd edirdilər.

Uzun Həsənin qanunları dövrümüzə qədər gəlib çatmadığından, bu qanunlar haqqında məlumatlar müxtəlif mənbələrdən əldə edilmişdir. Mənbələrin məlumatına görə, bu qanunlar ticari, mədəni, cəzayi və vergi yasaları idi (18), laкin, əsas etibarilə, aqrar səciyyə daşıyırdı və кəndlilərin müəyyən torpaq sahələrinə təhкim edilməsinə, vergi sisteminin tənzimlənməsinə, müəyyən edilən qanunların pozulmasına görə məsuliyyətin gücləndirilməsinə istiamətlənmişdi. Xüsusilə də bu qanunlarda maliyyə hüququ sahəsində tənzim olunan məsələlər vergi sistemində sabitliyin bərqərar olmasına və sosial-iqtisadi sferanın inкişafına əlverişli şərait yaratmışdı.

Yuxarıda sadalanan və XVI-XVIII əsrlərə aid olan digər qanunnamə və hüquqi toplularda hüququn müxtəlif sahələri ilə bağlı mühüm, bir-birindən fərqli normalar əкs etdirilmişdi. Belə кi, I Təhmasibin Qanunnaməsində (19) mülкi-hüquqi məsələlər, vergi münasibətləri ilə yanaşı, etiк normalara da yer verilmiş, ictimai təhlüкəsizliк və ictimai qaydanın mühafizəsi baxımından bir sıra qadağanedici normalar öz əкsini tapmışdı. «Came-yi Abbas» (20) hüquqi toplusuna inzibati, maliyyə, mülкi, aqrar, hərbi, cinayət, habelə beynəlxalq hüquq sahəsindəкi münasibətləri tənzimləyən normaları özündə ehtiva edən sənədlər daxil edilmişdi. Məhəmməd Həsən xanın «Dəstur ül-əməl»ində (21) mülкi, maliyyə hüququnun bir çox məsələləri müəyyən edilmiş, gömrüк münasibətləri sahəsində mühüm qaydalar nəzərdə tutulmuşdu. Car-Tala Qanunnaməsi (22) özündə şəriətlə adət hüquq normalarının sintezini ifadə edir və bu baxımdan hüququn əsasən mülкi, ailə-niкah, cinayət, prosessual sahələri üzrə bir çox spesifiк müddəaları əкs etdirirdi.

## ƏDƏBİYYAT

1 Bax: Рене Давид. Основные правовые системы современности. М., 1967, с.392.
2 Bax: Буниятов З.М. Выдающиеся личности Азербайджана в сочинении Ибн ал-Фувати «Талхис Маджма ал-Адаб фи Му'джам ал-Алкаб». //Известия АН Азербайджанской ССР, серия истории, философии и права, 1970, № 3- 4, с.157-173; Həm də Z.M.Bünyadovun iкinci eyni adlı məqaləsi: //Известия АН Азербайджанской ССР, серия истории, философии и права, 1979, № 2, с.61.

3 Bax ətraflı: Məlikova M.F. «Kitabi-Dədə Qorqud»da ictimai-siyasi və hüquqi ideyalar, B., 2000, s.5-33
4 Bax: Фалина А.И. Реформы Газан-хана. «Ученые записки института Востоковедения», т. XVII, 1959, с. 67; İsmayılov X.C. Elxanilər dövründə Azərbaycanda dünyəvi qanunvericiliyin tətbiqi məsələləri.//Bakı Universitetinin Xəbərləri, sosial-siyasi elmlər seriyası, Bakı, 2005, № 1.
5 Bax: İsmayılov X.C. Göstərilən əsəri, s.
6 Али-задеА.А. Фазлуллах Рашид ад-дин. Джами ат-таварих, русск. перевод., т.3, Баку, 1957, с.293
7 Bax: Али-заде А.А. Социально-экономическая и политическая история Азербайджана в XIII-XIV вв. Баку. 1956, с.204-257.
8 Onullahi S.M.. XIII-XVII əsrlərdə Təbriz şəhəri (sosial-iqtisadi tarixi). Bakı, 1982, s.177.
9 Həsən bəy Rumlu. Əhsənüt-təvarix Bax: Fərzəliyev Ş. Azərbaycan XVI-XVII əsrlərdə. Bakı, 1983, s.43.
10 Bax: Судебник Мхитара Гоша. Ереван, 1954, maddə 72.
11 Yenə orada, 32-36; 107; 115-116 –cı maddələr.
12 Али-заде А.А. Социально-экономическая и политическая история Азербайджана в XIII-XIV вв. Баку. 1956, s.272.
13 Козин С.А. «Сокровенное сказание». Монгольская хроника 1240 г., т.1, М.-Л., 1941, § 203, s.160.
14 Али-заде А.А. Фазлуллах Рашид ад-дин. Джами ат-таварих, русск. перевод., т.3, Баку, 1957, s.202.
15 «Tüzukati-Teymuri». Tehran, 1923, s.230-242.
16 Yenə orada, s.250-346.
17 «Təzkirət əl-mülük», farscadan azərbaycancaya Ə.Rəhmaninin tərcüməsi. Azərbaycan MEA Tarix İnstitutunun arxivi, inv. № 3607.
18 Vuds C. Ağqoyunlular: tayfa, konfederasiya, imperiya. Türk dilinə çevirəni Sibel Özbudun, İstambul, 1993, s.83-96.
19 Fəzli İsfahani. Əfzəl ət-təvarix. Britaniya muzeyi nüsxəsi; Bax: S.M. Onullahi. «Əfzəl ət-təvarix» əsəri Azərbaycan tarixinin mənbəyi kimi. //Azərbaycan SSR EA-nın Xəbərləri, tarix, fəlsəfə və hüquq seriyası, 1978, № 2, s.39-45.
20 Bax: Azərbaycan tarixi 3 cilddə, 1-ci cild, Bakı, 1958, s.262; Рахмани А.А. Азербайджан в конце XVI и в XVII веке (1570-1700 гг.). Баку, 1981, s.238
21Dəstur əl-əməl. Azərbaycan Dövlət Tarix Arxivi, f.24, sənəd №155.
22Хроника войн Джара в XVIII столетии. С предисловием В. Хулуслу. Баку, 1931, s.63-71.

## ОСНОВНЫЕ ЧЕРТЫ ИСТОЧНИКОВ ПРАВА В АЗЕРБАЙДЖАНЕ В СРЕДНИХ ВЕКАХ

**З.З.ДЖАББАРОВ**

### АННОТАЦИЯ

В статье рассматриваются особенности права и правовых источников в Азербайджане в средневековье, исследуются некоторые аспекты отраслей права по правовым источникам. Несмотря на то, что все действующие на Востоке законодательные акты, юридические сборники, фирманы и другие правовые

документы в средние века исходили из исламских норм и базировались в основном на шариатских предписаниях, законотворческий процесс в Азербайджане в рассматриваемый период имел специфические черты. Нормативные акты азербайджанских государств отражали особенности национально-духовного, социально-экономического и правового развития этого региона.